AtəşgahSığorta
HƏYAT SIĞORTASI

**"Atəşgah Həyat" Sığorta Şirkəti ASC-nin "Kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası" üzrə YADDAŞ VƏRƏQİ**

**SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI:**
Sığorta şəhadətnaməsi sığortalı tərəfindən doldurulan sığortalanma haqqında ərizə əsasında bağlanır. İstehlak krediti üzrə sığortalanma zamanı anderraytinq tələbləri nəzərə alınmaqla Sığorta şəhadətnaməsi sığortalanma haqqında ərizə olmadan da bağlanıla bilər.

**SIĞORTA TƏMİNATINA DAXİL OLAN RİSKLƏR:**
Bu qaydalarda göstərilən istisna hallar nəzərə alınmaqla, aşağıdakılar nəticəsində baş vermiş sığorta hadisələrinə sığorta təminatı verilir:
1. Sığortalının ölümü;
2. Sığortalının xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının pozulması ilə əlaqədar ona məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması.
Qeyd: Şəhadətnamədə qeyd olunan risklər əsas götürülür.

**SIĞORTA HADİSƏSİ HESAB EDİLMƏYƏN HADİSƏLƏR:**
Aşağıdakılar nəticəsində baş verən hadisələrə sığorta şəhadətnaməsində təminat verildiyi hallar istisna olmaqla, onlar sığorta hadisəsi hesab edilmir:
1. Hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər, vətəndaş qarşıdurmaları, hərbi çevrilişlər və xalq ixtişaşları hesab edilən tədbirlər;
2. Nüvə, bakterioloji (bioloji) və kimyəvi vasitələrdən (silahlardan) istifadə etməklə həyata keçirilən terror aktları;
3. Sığortalının alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoşluğu, o cümlədən belə sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etməsi;
4. Nüvə partlayışlarının, şüalanma və radioaktiv çirklənmənin təsiri;
5. Sığortalının özünün idarə etdiyi uçuş aparatının (o cümlədən deltaplanın və paraşütün) qəzaya uğraması;
6. Sığortalının qış, sualtı, atçılıq, avia və döyüş idman növləri, avto-moto idman, paraşütlə tullanma, qayalara dırmanma, alpinizm, deltaplanerizm, dağ və su turizmi ilə peşəkar şəkildə məşğul olması;
7. Sığortalının sığortalanma haqqında ərizəsində bəyan edilən sığorta müqaviləsi, eləcə də sığorta şəhadətnaməsində buna əsasən aydın və oxunaqlı formada istisna edilən xəstəliklər nəticəsində baş vermiş hadisələr.
8. Sığortalının xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizminin funksiyalarının pozulması ilə əlaqədar ona məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunmasına münasibətdə aşağıda göstərilən hadisələr sığorta hadisəsi hesab edilmir:
8.1. Sığortalının orqanizminin funksiyalarının pozulması ilə əlaqədar sığorta şəhadətnaməsi bağlananadək ona məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması;
8.2. Sığorta şəhadətnaməsi bağlananadək sığortalının orqanizminin funksiyalarının pozulmasına səbəb olan bədbəxt hadisənin baş verməsi ilə əlaqədar ona sığorta şəhadətnaməsi müddətində məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması;
8.3. Xəstəlik səbəbindən sığortalının orqanizminin funksiyalarının pozulması ilə əlaqədar sığorta şəhadətnaməsinin bağlanmasından öncə məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması üçün səlahiyyətli dövlət orqanına (qurumuna) ünvanlandığı müraciəti üzrə ona sığorta şəhadətnaməsi bağlandıqdan sonra 6 (altı) ay ərzində məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması.

**SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ İLƏ BAĞLI TƏNZİMLƏNMƏ :**
Sığorta şəhadətnaməsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
1. Sığortalı öldükdə;
2. Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;
3. Sığortalı sığorta haqqını sığorta şəhadətnaməsində müəyyən edilən qaydada ödəmədikdə;
4. Kredit müqaviləsinə xitam verilməsi ilə əlaqədar sığorta şəhadətnaməsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış edildikdə;
5. Sığorta marağı artıq mövcud olmadıqda;
6. Sığortalı və ya sığortaçı sığorta şəhadətnaməsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

Sığorta şəhadətnaməsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta şəhadətnaməsi 5 (beş) ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, 3 (üç) aydan az müddətə bağlanmış olduqda isə 5 (beş) iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.
Sığorta vasitəçisinin iştirakı ilə bağlanılan sığorta şəhadətnaməsi üzrə kredit müqaviləsinə xitam verilməsi ilə əlaqədar sığorta şəhadətnaməsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış edildikdə, sığorta vasitəçisi məlumatlı olduğu təqdirdə bu barədə sığortaçıya yazılı və ya elektron qaydada məlumat verməlidir.
Sığorta şəhadətnaməsinə xitam verilməsi üçün əsas olan şərait yarandığı digər bütün hallarda şəhadətnaməyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə yazılı və ya elektron qaydada xəbərdar etməlidir.

AtəşgahSığorta
HƏYAT SIĞORTASI

## SIĞORTA ÖDƏNİŞİNDƏN İMTİNA:

1. Sığortaçıya və ya onun nümayəndəsinə sığorta hadisəsi ilə əlaqəsi olan məlumatı sərbəst əldə etmək imkanı yaratmaq tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması və sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı, sığorta olunan, faydalanan şəxs tərəfindən maneçilik törədilməsi;
2. Baş vermiş hadisənin qanunvericiliyə, qaydalara və ya sığorta şəhadətnaməsinə əsasən sığorta hadisəsi hesab edilməməsi;
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, faydalanan şəxsin, sığorta olunanın, müvafiq hallarda zərərçəkənin müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
4. Sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
5. Şəhadətnamə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;
6. Sığorta haqqının sığorta şəhadətnaməsində nəzərdə tutulmuş vaxtda ödənilməməsi;
7. Sığortaçının qaydaları və Mülki Məcəllədə nəzərdə tutulan sığortalı və sığorta olunanın vəzifələrinin icra edilməməsi;
8. Sığorta şəhadətnaməsinin qüvvəyə mindiyi tarixdən sonra sığortalının, sığorta olunanın sığortalanma haqqında ərizədə verilmiş sualları qəsdən həqiqətə uyğun olmayan qaydada cavablandırmasının aşkar edilməsi.

Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər:

1. Sığorta şəhadətnaməsi;
2. Sığorta ödənişinin alınması barədə faydalanan şəxsin (şəxslərin) sığorta tələbi;
3. Öldüyü hal istisna olmaqla, sığortalının şəxsiyyətini təsdiq edən sənədinin surəti;
4. Kredit müqaviləsinin borcverən tərəfindən təsdiqlənmiş surəti;
5. Kredit müqaviləsi üzrə borcverənin təsdiqlədiyi ödəniş qrafikinin surəti və kredit müqaviləsi üzrə borcverənin təsdiqlədiyi qalıq borc məbləğinə dair arayış;
6. Sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanının (qurumunun) belə hadisələrin baş verməsi tarixini, faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədi;
7. Sığortalı sığorta şəhadətnaməsinin qüvvədə olduğu müddətdə öldüyü halda:
    7.1. Ölüm haqqında şəhadətnamənin surəti;
    7.2. Xəstəlikdən öldüyü halda həmçinin xəstəlik tarixindən çıxarış (epikriz);
    7.3. Sığortalının vərəsələrinə sığorta ödənişinin verilməsi nəzərdə tutulduqda vərəsəlik haqqında şəhadətnamənin surəti;
8. Sığortalının əmək qabiliyyətinin itirilməsi halında ona orqanizmin funksiyalarının pozulması faizinin təyin edilməsi haqqında tibbi-sosial ekspert komissiyasının rəyinin surəti.

## SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ NƏ ETMƏK LAZIMDIR?

Sığortalının ölüm halı üzrə sığorta hadisəsi hesab edilə bilən hal baş verərsə, faydalanan şəxs aşağıdakı qaydada hərəkət etməlidir:

- Müvafiq səlahiyyətli dövlət orqanına dərhal məlumat verməlidir:
- Təcili tibbi yardım: (012) 103
- Daxili İşlər Nazirliyinin zəng mərkəzi: (012) 102
- Faydalanan şəxs Sığortaçını istənilən mümkün yolla ən qısa zamanda məlumatlandırmalıdır.
- Sığorta hadisəsinin təsdiq edilməsi ilə bağlı tələb olunan sənədləri toplamalı və sığortaçıya təqdim etməlidir.

Sığortalının xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının pozulması ilə əlaqədar ona məhdudlaşma (əlillik) dərəcəsinin təyin olunması üzrə sığorta hadisəsi baş verdikdə, sığortalı və ya faydalanan şəxs sığorta ödənişinin həyata keçirilməsi üçün lazım olan sənədləri sığortaçıya təqdim etməlidir.

Sığorta hadisəsi baş verdikdə,sualınız olduğu halda həftənin hər günü, 24 saat qeyd olunan telefon nömrəsinə (012) 940 zəng edə və ya office@ateshgah-life.com ünvanına yaza bilərsiniz.
Sığorta şəhadətnaməsi ilə bağlı şikayətiniz olduqda, siz Sığortaçının şikayətlərin idarəedilməsi üzrə təyin edilmiş məsul əməkdaşı-koordinator ilə əlaqə saxlaya bilərsiniz (koordinatorun əlaqə məlumatları aşağıda göstərilir):

E-mail: complaints@ateshgah.com
office@ateshgah-life.com
Tel: (012) 940 (daxili 314)

Siz koordinatorla əlaqə saxlamayıb birbaşa sığortaçıya (ünvanı: Bakı şəh, AZ1110, Nəsib bəy Yusifbəyli küç. 75B) şikayət ərizəsi ilə müraciət edə bilərsiniz.
Daxil olmuş şikayətlərə 5 (beş) iş günü ərzində baxılaraq cavablandırılacaqdır. Şikayət əlavə araşdırma tələb etdiyi halda, müştəriyə araşdırmanın gecikmə səbəbləri və atılacaq addımlar barədə izahedici cavab təqdim olunur.
Müvafiq şikayət ilə bağlı yenilik və ya dəyişiklik olarsa, bu barədə şikayətçi mütləq təkrar məlumatlandırılır.
Şikayətinizin nəticələri ilə razılaşmadığınız təqdirdə, bununla bağlı sizin Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayətlə müraciət etmək hüququnuz vardır. Ünvan: Bakı şəhəri, Bülbül prospekti 27; Tel: (+994 12) 493 50 58, (+994 12) 966.
Sığortaçının və Mərkəzi Bankın şikayətinizlə bağlı cavabları sizi qane etmədikdə isə şikayətlə Mediatora (mediasiya təşkilatı) və ya Məhkəməyə müraciət etmək hüququnuz var.

**QEYD 1: Bu Yaddaş vərəqi sığorta qanunvericiliyi və sığorta qaydaları əsasında hazırlanmışdır.**